RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 159 (8475) CÜMƏ, 14 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev böhran şəraitində də etibarlı sosial müdafiəni təmin edir

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsinin təşkili, maddi nemətlərin ədalətli bölgüsünün təmin edilməsi və daxili siyasətin sosial yönümlülüyünün ön planda saxlanılmasıdır. İstənilən dövlətin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri məhz əhalinin sosial rifahının yüksəlməsi amilidir.

Təəssüflə qeyd etməliyik ki, 7 aydır bəşəriyyəti çətin sınaqla üz-üzə qoyan qlobal böhran bir çox dövlətlərin bu istiqamətdəki siyasətini iflic duruma salıb. İqtisadiyyatın tənəzzülü səbəbindən bir çox sosial layihələrin icrası təxirə salınıb.

Əlbəttə ki, qlobal böhran dünyanın bir parçası olan Azərbaycanın da iqtisadiyyatına təsirsiz ötüşməyib. Son 6 ayda ölkə iqtisadiyyatındakı 2,7 faizlik tənəzzül bunu təsdiqləyən reallıqdır. Lakin bu tənəzzül dövlətin sosial siyasətinin həyata keçirilməsində heç bir maneə yaratmır. Dövlətin məhz pandemiya ilə mübarizə dövründə reallaşdırdığı sosial layihələrə nəzər yetirdikdə buna bir daha şahidlik edirik.

## Prezidentin əhalinin sağlamlığının qorunması və rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi uğurlu layihələr bunun real təsdiqidir

**Karantin dövründə vətəndaşa Prezident qayğısı:**

- Məşğulluq və sosial rifaha dəstək tədbirləri 5 milyon nəfəri əhatə edib;
- Dövlət sektorunda çalışan 900 min nəfərin iş yeri və əməkhaqları qorunub;
- Özəl sektor üzrə 760 min nəfərin işsizliklə üzləşməsinin qarşısı alınıb;
- İlin əvvəlindən əmək müqavilələrinin sayı 120 min artıb;
- Aprel-may aylarında 600 min şəxsə 190 manat birdəfəlik müavinət ödənilib;
- 2 ayda 600 min şəxsə ödənilən birdəfəlik müavinət 225 milyon manat təşkil edib;
- İyul ayında 16 şəhər və rayon üzrə 290 min şəxsə 55 milyon manat ödənilib;
- Avqust ayında 13 şəhər və rayon üzrə 278 min nəfərə 53 milyon manat ödəniləcək;
- 4 ayda birdəfəlik ödəməyə yönəldilmiş vəsaitin həcmi 333 milyon manata çatacaq.

### Müstəqillik dövrünün ən böyük sosial yardım proqramı

Xalqın alternativsiz liderinə çevrilən cənab İlham Əliyev məhz pandemiya ilə mübarizə dövründə də vətəndaşların sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atır. Böhran şəraitində əhalinin sosial rifah halının yüksəldilməsi - vətəndaşların əməkhaqları və pensiya təminatının yaxşılaşdırılması, işsizlik probleminin aradan qaldırılması, paytaxtda və bölgələrdə müasir sosial infrastrukturun yaradılması prioritet olaraq qalır.

Uzaqgörən siyasəti ilə Azərbaycanın koronavirus bəlasından az itkilərlə qurtulması üçün mühüm qərarlar qəbul edən Prezident İlham Əliyevin gündəliyində həm insanların sağlamlığının qorunması, həm də sosial rifah halının yaxşılaşdırılması məsələləri birinci olaraq qalır.

Öncə onu qeyd edək ki, Azərbaycan hələ aylar öncə pandemiya ilə mübarizə tərdbirlərinə start verərkən dövlət başçısı, ilk növbədə, iqtisadiyyatı deyil, xalqın sağlamlığının qorunmasını və sosial rifah halının yaxşılaşdırılmasını ön planda tutaraq genişmiqyaslı iqtisadi və sosial paketini təqdim etdi. Maliyyə həcmi 3,5 milyard manatdan çox olan bu paket müstəqillik dövrünün ən böyük yardım proqramı idi. Bu paketə əsasən bir neçə istiqamət üzrə dövlət dəstəyi proqramı hazırlandı. Bunun ardınca pandemiya ilə əlaqədar olaraq elan edilən karantin dövründə əhalinin sosial durumunun yaxşılaşdırılması istiqamətində bir çox qərarlar qəbul edildi.

Dövlət dəstəyi proqramlarına əsasən sahibkarlara karantin müddətində dəyən ziyanın qarşılığı ödənildi. İşləməyən vətəndaşlara aylıq 190 manat müavinət ödənilməyə başlanıldı. Bundan başqa, pandemiyadan zərərçəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqlarının müəyyən hissəsi dövlət tərəfindən ödənildi, fərdi və mikro sahibkarlara maliyyə dəstəyi göstərildi.

Ardı 3-cü səh.

# Prezidentlərin telefon danışığında Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi sual doğuran məsələyə xüsusi diqqət yetirilmişdir



Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.

Prezident İlham Əliyev Prezident Vladimir Putinə iyulun 12-16-da Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribat barədə məlumat vermişdir. Dövlətimizin başçısı Ermənistanın növbəti təcavüz aktı nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının və bir nəfər mülki şəxsin həlak olduğunu vurğulamışdır. Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca kəndləri və yaşayış məntəqələrini artilleriya atəşinə tutması nəticəsində bir çox evlərin dağıldığını və yararsız hala düşdüyünü bildirmişdir.

Prezident İlham Əliyev Ermənistanın bu hərbi hücumunun əsas məqsədinin üçüncü tərəfləri Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək olduğunu qeyd etmişdir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan sərhədində baş vermiş toqquşmalar başa çatandan sonra iyulun 17-dən bu günə kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter almasının Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu Rusiya Prezidentinin diqqətinə çatdırmışdır.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmadan dərhal sonra Rusiyadan Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edərək bu günə qədər Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcminin 400 tondan artıq olduğunu bildirmiş və telefon zənginin əsas məqsədinin bu məsələnin aydınlaşdırılması olduğunu vurğulamışdır.

Telefon söhbəti zamanı ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın gündəliyinə aid məsələlər müzakirə edilmiş və Azərbaycan-Rusiya tərəfdaşlığının bütün sahələrdə daha da möhkəmləndirilməsinə dair qarşılıqlı niyyət ifadə olunmuşdur.

Prezident İlham Əliyev Vladimir Putini Rusiyada COVID-19-a qarşı peyvəndin qeydiyyata alınması ilə bağlı təbrik etmişdir.

*Prezidentin Mətbuat Xidməti*

# Türkiyə hər zaman Azərbaycanın yanındadır və Azərbaycanla bir yerdə olacaqdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güleri, Türkiyə Respublikasının Quru Qoşunları komandanı, ordu generalı Ümit Dündarı, Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri komandanı, ordu generalı Hasan Küçükakyüzü, Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı, donanma admiralı Adnan Özbalı və hərbi nümayəndə heyətinin digər üzvlərini qəbul edib.

Ardı 2-ci səh.



# Pandemiya ilə mübarizə strategiyasının vacib parçası

## Seroloji testlər vasitəsilə xəstəlik keçirmiş, immunitet qazanmış insanların sayını müəyyənləşdirmək mümkün olacaq

2020-ci il başlayandan planetimizi çənginə alan yeni tip koronavirus dünyanı, bəşəriyyəti alışdığı düzənə, həyat tərzinə qaytarmağa hələ də imkan vermir. Yer kürəsinin 213 ölkə və bölgəsinə yayılan bu gözəgörünməz bəla ilə mübarizə hazırda bütün dövlətlər üçün prioritetdir. Virusun kütləvi yayılmasının qarşısını almaq üçün görülən tədbirlərlə yanaşı, COVID-19 peyvəndinin hazırlanaraq kütləvi istehsala buraxılması da dünyanın gündəmini zəbt edib.

Artıq bir neçə gündür ki, Rusiyada koronavirusa qarşı ilk peyvəndin qeydiyyata alındığı xəbəri yayılıb. Bildirilib ki, bu vaksin insanlarda COVID-19-a qarşı davamlı immunitet yaradır və hər hansı ciddi fəsadlara səbəb olmur.

Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edən zaman bu ölkənin COVID-19-a qarşı peyvəndi qeydiyyata alması məsələsi barədə də danışılıb.Telefon söhbəti zamanı Prezident İlham Əliyev Vladimir Putini Rusiyada COVID-19-a qarşı peyvəndin qeydiyyata alınması ilə bağlı təbrik edib.

Hazırda Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu vaksinin ilkin qiymətləndirilməsi məsələsini müzakirə edir.

### Növbəti həftədən Azərbaycanda seroloji testlərin keçirilməsinə başlanır

ÜST-ün rəyinə əsasən, COVID-19 pandemiyası ilə mübarizədə ən vacib şərtlərdən biri müayinələrin aparılması və xəstəlik hallarının vaxtında müəyyənləşdirilməsidir.

Ardı 3-cü səh.

# “Azəri-Çıraq-Günəşli”də bütün işlər plan üzrə gedir

## Prezident İlham ƏLİYEV: “Bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir”



Bu il yanvarın 1-dən avqustun 1-dək Xəzərin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi layihəsi çərçivəsində 2 milyard 485 milyon ABŞ dolları həcmində gəlir əldə edilib. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) bu məlumatı AÇG-dən hasilatın ahəngdar davam etdiyini təsdiqləyir.

AÇG 26 ildir etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir və 23 ildir ahəngdar şəkildə neft-qaz verir. Buradan indiyədək əldə olunan neft hasilatının həcmi bu ilin yanvar ayında 500 milyon tona çatıb. AÇG həmçinin Azərbaycana, ümumilikdə, 45 milyard kubmetrdən artıq səmt qazının təmənnasız təhvil verilməsini təmin edib.

Bu il avqustun 10-da “Qarabağ” yatağında quraşdırılacaq stasionar dəniz özülünün əsas hissələrindən birinin - dayaq blokunun Xəzərə yola salınmasında iştirak edən Prezident İlham Əliyev qurğu ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə “Azəri-Çıraq-Günəşli” yataqlarında hasilatın sabit saxlanılmasının vacib məsələ olduğunu vurğulamışdır: “Azəri-Çıraq-Günəşli” ilə bağlı bütün işlər plan üzrə gedir və bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir.”

1994-cü ilin sentyabr ayında AÇG üzrə müqavilə imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu bildirmişdilər. Hazırda mütəxəssislər burada sərvətin daha çox - ən azı 1 milyard ton olduğu fikrini söyləyirlər. 2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması da bu amilə əsaslanır. Yeni müqavilə 2050-ci ilin əvvəlinədək davam edəcək və qarşıdakı illərdə AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq.

Ardı 3-cü səh.

# Türkiyə hər zaman Azərbaycanın yanındadır və Azərbaycanla bir yerdə olacaqdır

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı səfiri Erkan Özoral da iştirak edib.

Qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab nazir, hörmətli qonaqlar.

Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bu gün Türkiyə-Azərbaycan birgə hərbi təlimlərinin son günüdür. Hərbi təlimlərin birinci mərhələsi başa çatır. Bu, çox əlamətdar hadisədir, bizim birliyimizi, qardaşlığımızı bir daha göstərir. Bir neçə gün ərzində ölkəmizin müxtəlif şəhərlərində təlimlər keçirilir. Həm hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var. Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlimlər keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür.



Bizim bütün sahələrdə olduğu kimi, hərbi və hərbi-texniki sahədə də işbirliyimiz, əməkdaşlığımız sürətlə inkişaf edir. Sirr deyil ki, Türkiyənin hazırda çox güclü hərbi sənaye potensialı vardır və biz də bu potensialdan faydalanırıq. Biz çox sevinirik ki, Türkiyə bu gün ən müasir silahlar, hərbi texnika istehsal edir. Biz əlbəttə ki, bugünə qədər olduğu kimi, bundan sonra da bu imkanlardan faydalanmaq istəyirik. Əminəm ki, yaxın zamanlarda Türkiyə bütün başqa sahələrdə olduğu kimi, hərbi-texniki əməkdaşlıq sahəsində də bizim üçün bir nömrəli tərəfdaş olacaqdır. Bildiyiniz kimi, həm siyasi, həm iqtisadi, həm də başqa sahələrdə bizim əlaqələrimiz bütün ölkələr üçün örnəkdir. Siz bilirsiniz, mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz - iki qardaş ölkə öz siyasətimizlə bu birliyi daha da möhkəmləndirdik.

Bir ay bundan öncə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi hücumu nəticəsində hərbçilərin və mülki şəxsin həlak olması bir daha göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Bizi ilk və birmənalı şəkildə dəstəkləyən ölkə Türkiyə olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan, hörmətli cənab nazir, siz, Xarici İşlər naziri, digər vəzifəli şəxslər bir neçə dəfə çox kəskin və ciddi açıqlamalar vermisiniz ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və hər zaman Azərbaycanla bir yerdə olacaqdır. Bu, bizi daha da ruhlandırır və yenə də bizim bir-birimizə nə qədər yaxın olduğumuzu göstərir.

Bu təlimlərin uğurla keçməsi, əlbəttə, hesab edirəm ki, çox önəmli hadisədir. Bu təlimlər gələcəkdə də davam edəcək. Hesab edirəm ki, bu təlimlərin intensivliyi bundan sonra daha da artacaq, təbii ki, buna ehtiyac var. Əminəm, bizim qardaşlarımız - Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti bu günlər ərzində Azərbaycanda olarkən özləri də gördülər ki, onlar burada öz vətənindədirlər. Əminəm ki, onlar Türkiyəyə döndükdən sonra da o xatirələri öz qəlblərində saxlayacaqlar. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Türkiyənin Milli Müdafiə naziri **Hulusi AKAR** dedi:

- Hörmətli cənab Prezidentim, sağ olun, çox təşəkkür edirəm.

Vaxt ayırıb bizi qəbul etdiyiniz üçün Sizə bir daha ehtiramımızı və təşəkkürümüzü bildirirəm. Eyni zamanda, cənab Prezidentimizin Zati-alinizə salamlarını və xoş arzularını çatdırmaq istəyirəm.

Bizim də, cənab Prezidentimizin də Sizi ailəlikcə tezliklə Türkiyədə gözlədiyimizi bildirmək istəyirəm. Həqiqətən biz bir millət, iki dövlətik və bunu ən kiçik fərdə qədər hər kəs bilir. Xüsusilə Türkiyədə 83 milyonluq xalqımızın nəbzi Azərbaycan ilə döyünür.

Tovuzdakı son hücumu ilk gündən etibarən cənab Prezidentimiz başda olmaqla bütün 83 milyonluq xalqımız nifrətlə qınayır. Bu təxribatların böyük hücum və beynəlxalq hüquqa zidd olduğunu, Xocalı qətliamından, Dağlıq Qarabağın işğalından etibarən cinayətkar hərəkətlərin davamı olduğunu görürük. Buna qarşı bizim mövqeyimizi bilirsiniz. Azərbaycan bizim qardaşımızdır, bir ananın iki ayrı övladıyıq. Burada biz özümüzü həqiqətən vətənimizdə hiss edirik.

Bütün bunlar sadəcə sözdə qalmamalı, əməldə də həyata keçirilməlidir. Türkiyə Silahlı Qüvvələri ilə Azərbaycan Silahlı Qüvvələri arasında əməkdaşlıq bu gün deyil, hər zaman mövcud olub. 1991-ci ildə Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olaraq Türkiyə Cümhuriyyəti ilə münasibətlər inkişaf etdirilərkən ordularımız arasındakı əlaqələr də, məlum olduğu kimi, inkişaf etməyə başladı. Belə ki, bizim hərbi çərçivə müqavilələrimiz, hərbi təhsil sahəsində əməkdaşlığa dair razılaşmalarımız, müdafiə sənayesi sahəsində əməkdaşlığımız var. Bütövlükdə bunların məntiqi nəticəsi olaraq, 2010-cu ildə imzalanan strateji əməkdaşlıq sazişimiz var. Beləliklə, bu müqavilələr çərçivəsində bizim buraya gəlməyimiz, getməyimiz, birlikdə olmağımız, yeməyimiz-içməyimiz, təlimlərdə bərabər olmağımız son dərəcə təbii bir fəaliyyətdir. Biz ölkələrimizin suverenliyi, müstəqilliyi və təhlükəsizliyi üçün lazım olan nə varsa, bugünə qədər etdik və bundan sonra da etməyə davam edəcəyik.

Təbii ki, bu təlimlər çox önəmlidir. Təlimlər nəzəriyyənin əmələ çevrildiyi laboratoriya kimidir. Bu gün də bunun nümunəsini gördük. Böyük bir sevgi, böyük bir şövq, yüksək əhvali-ruhiyyə gördük. Hamının gözləri yanırdı, birliklə yanaşı, bir işi bacarmağın sevincini yaşayırdılar.

Beləliklə, biz əməkdaşlığımızın davamını, bu təlimlərin bu gün başa çatmasını deyil, sadəcə, bir mərhələsini gördük. Hərbi təlimlər, hərbi təhsil davamlı prosesdir. Buna görə də bu istiqamətdə fəaliyyətlər davam edir.

Bu səbəbdən cənab Prezidentimiz başda olmaqla Türkiyə Cümhuriyyəti dövləti və bizim 83 milyonluq xalqımız buradakı fəaliyyətləri həqiqətən böyük sevgi və şövq ilə yaxından izləyir. Atatürkün də dediyi kimi, Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Həqiqətən bu, bir millət olmağımızın təbii nəticəsidir.

Burada Baş Qərargah rəisimiz, Quru Qoşunları, Hərbi Hava Qüvvələri komandanlarımızla birlikdə həqiqətən bunu çox mühüm tapşırıq, mühüm iş olaraq görürük.

Buradakı dostlarımıza da dedik, Azərbaycan tək deyil. Bunu hər kəs bilsin. Biz bərabərik, birik, bir millətik. Biz sülhün, sabitliyin tərəfdarıyıq. Təkcə ölkələrimizin təhlükəsizliyi, əmin-amanlığı mənasında deyil, bütün Qafqazın, bütün bölgənin sülh və əmin-amanlıq içərisində olmasının tərəfdarıyıq. Digər tərəfdən, haqqımızın, hüququmuzun, mənafelərimizin də tapdalanmasına imkan verməyəcəyimizi, bunların qorunması üçün lazım olan nə varsa edəcəyimizi hamının bilməsini istəyirik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirik. Sağ olun, var olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim də səmimi salamlarımı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana çatdırasınız.

## "İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İşsizlikdən sığorta fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1888) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddədə hər iki halda "128 235 400,0" rəqəmləri "151 235 400,0" rəqəmləri ilə əvəz edilsin.

2. 2-ci maddə üzrə:

2.1. 1.1-ci və 1.2-ci bəndlərdə "17 834 800,0" rəqəmləri "17 662 900,0" rəqəmləri ilə əvəz edilsin;

2.2. 1.3-cü bənddə "76 200 000,0" rəqəmləri "76 543 800,0" rəqəmləri ilə əvəz edilsin;

2.3. 3-cü hissədə "16 335 800,0" rəqəmləri "39 335 800,0" rəqəmləri ilə əvəz edilsin.

3. 3-cü maddə üzrə:

3.1. 1-ci hissədə "5 000 000,0" rəqəmləri "10 000 000,0" rəqəmləri ilə əvəz edilsin;

3.2. 2-ci hissədə "5 000 000,0" rəqəmləri "7 000 000,0" rəqəmləri ilə əvəz edilsin;

3.3. 5-ci hissədə "2 000 000,0" rəqəmləri "3 000 000,0" rəqəmləri ilə əvəz edilsin;

3.4. 6-cı hissədə "63 735 400,0" rəqəmləri "78 735 400,0" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2020-ci il*

## Azərbaycan və Türkiyə Müdafiə nazirliklərinin rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib







Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar, Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov, Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler və hər iki ölkənin müxtəlif qoşun növlərinin komandanları avqustun 13-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin





xatirəsini yad edib, məzarı önünə əklil qoyublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman vətən övladlarının xatirəsi ehtiramla anılıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Qonaqlar Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsinin önünə əklil qoyub və gül dəstələri düzüblər.

## Azərbaycan-Türkiyə birgə təlimlərində Yüksək Səviyyəli Müşahidəçi Günü keçirilib

Avqustun 13-də Azərbaycan-Türkiyə Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin Yüksək Səviyyəli Müşahidəçi Günü keçirilib.









Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və Türkiyə Müdafiə nazirliklərinin rəhbərliyi və qoşun növləri komandanları təlimlərin birinci mərhələsinin son epizodunu izləmək üçün təlim poliqonuna gəliblər.

Əvvəlcə təlimin planlaşdırılması, ona hazırlıq prosesi, qoşunların yerləşdirilməsi, eləcə də mərhələlər üzrə icra olunan tapşırıqlar barədə brifinq təqdim edilib. Təlimlər haqqında ərazinin maketi üzərində ətraflı məruzə olunduqdan sonra yüksək səviyyəli qonaqlar təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış olub, qarşıya qoyulan tapşırıqların praktiki icrasını müşahidə ediblər.

Keçirilmiş birgə taktiki təlimlərdə hər iki ölkə ordularının hərbi qulluqçuları və bölmələri yüksək peşəkarlıq və bacarıq göstərib, birgə fəaliyyətlərin planlaşdırılmasında və icrasında qərargahların və bölmələrin şəxsi heyəti əvvəlki təlimlərdə əldə etdikləri təcrübələrini artırıb, hər iki ölkənin milli maraqlarından irəli gələn strateji məqsədlərə nail olmaq üçün qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlməyə hazır olduqlarını nümayiş etdirib.

Birgə təlimlərin birinci mərhələsinin son epizodu müvəffəqiyyətlə başa çatdıqdan sonra qonaqlar şəxsi heyətlə görüşüb, fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və xatirə şəkli çəkdiriblər.

Sonda Azərbaycan və Türkiyə hərbi marşlarından ibarət musiqi proqramı nümayəndə heyətləri və təlim iştirakçılarına təqdim olunub.

# Biz birlikdə güclüyük!

Azərbaycanın BMT-nin "Davamlı inkişaf hesabatı - 2020" sənədində dünyanın 166 ölkəsi arasında "davamlı inkişaf məqsədləri indeksi" üzrə 54-cü pillədə qərarlaşması ölkə mediasının əsas mövzularından birinə çevrilmişdir. Aparıcı mütəxəssislər, tanınmış ekspertlər bunu ətraflı şərh edir, nailiyyətlərin mahiyyətini açıqlayır, vacib məqamlara aydınlıq gətirirlər.




## İlham Əliyevin qətiyyətli islahatlar kursu Azərbaycanın beynəlxalq nüfuzunun artmasını təmin edir

Diqqəti çəkən məqam ondan ibarətdir ki, 54-cü pillədə qərarlaşmaqla "Davamlı inkişaf məqsədləri indeksi"nə görə Azərbaycan regional liderə çevrilə bilmiş və əhatəsindəki bütün dövlətləri geridə qoymuşdur. BMT-nin hesabatında qonşularımızdan Rusiya 57-ci, Gürcüstan 58-ci, İran 59-cu, Qazaxıstan 65-ci, Türkiyə 70-ci, Ermənistan 75-ci və Türkmənistan 114-cü mövqedədirlər.

Ekspertlər Azərbaycanın BMT-nin Davamlı İnkişaf Məqsədləri üzrə - səhiyyə, rifah, yoxsulluq, qidalanma, təmiz su, təmiz enerji, davamlı şəhərlər və icmalar, sülh, ədalət kimi güclü institutlar istiqamətində irəliləyişlər etdiyini vurğulayırlar. Azərbaycan sözügedən indeksin mümkün 100 balından 72,6 bal toplamaqla, Şərqi Avropa və Mərkəzi Asiya regionunda 70,9 ballıq orta göstəricini də ötüb. Ekspertlərin diqqətindən yayınmayan maraqlı məqamlardan biri də odur ki, hesabata əsasən Azərbaycanda gündəlik gəliri 3,2 dollardan az olan yoxsul qeydə alınmamışdır. Ölkəmizdə həmçinin hər 100 min nəfərə düşən ana və körpə ölümü kimi göstəricilərdə də yaxşılaşma müşahidə olunur.

Mütəxəssislərin diqqətini çəkən ən vacib faktlardan biri də sənəddə bərabərsizliyi ifadə edən Cini əmsalının Azərbaycanda 38,6 olmasıdır. Bu isə o deməkdir ki, biz dünyada ən yaxşı göstəricilərdən birinə nail olan ölkəyik.

Əlbəttə, bütün bu uğurların qayəsini Azərbaycan Prezidenti İlham Əliyevin dönməz islahatçı ruhuna və qətiyyətli, iradəli lider keyfiyyətlərinə sahib olması təşkil edir. Məhz onun həyata keçirdiyi davamlı islahatlar sayəsində Azərbaycanın müasir iqtisadi və sosial infrastrukturunu formalaşdırmaq mümkün olmuş, iqtisadiyyatın sürətli inkişafı və onun rəqabətqabiliyyətliyi təmin edilmişdir.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycanda həyata keçirilən sosial siyasət məzmunu, dərinliyi və əhatə dairəsinə görə nümunəvi xarakter daşıyır. Son iki ildə reallaşdırılan sosial paketlər ölkə əhalisinin rifahının yüksəlməsinə mühüm təsir göstərməklə yanaşı, xalq-iqtidar münasibətlərini də yeni səviyyəyə qaldırmış, sıravi vətəndaşların, sosial müdafiəyə ehtiyacı olanların qayğılarına xüsusi həssaslıqla yanaşılmışdır. Yoxsulluğun aradan qaldırılması, səhiyyə sisteminin müasir standartlara uyğun yenidən qurulması, əhalinin kommunal problemlərinin, o cümlədən içməli suya tələbatının səmərəli həll edilməsi, eləcə də ölkənin enerji təhlükəsizliyinin təmin olunması prioritet məsələlər sırasındadır.

Eyni zamanda milli həmrəyliyin güclənməsi, ölkədə mövcud olan təhlükəsizlik, siyasi sabitlik, gələcəyə əminlik Azərbaycanın inkişaf strategiyasının uğurla reallaşdırılmasını bir daha təsdiq edir. Ən vacibi isə odur ki, qazanılan uğurlar hər il bir neçə dəfə beynəlxalq səviyyədə dünyanın aparıcı siyasi, iqtisadi, maliyyə və digər qurumları tərəfindən təsdiq olunaraq yüksək qiymətləndirilir.

Azərbaycanın bu beynəlxalq uğuru Prezident İlham Əliyevin pandemiyaya dair BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə üst-üstə düşür. Bu, belə qənaətə gəlməyə imkan verir ki, ölkəmizin beynəlxalq aləmdə nüfuzu yüksəldikcə, ona ayrılan diqqət də bu inkişafa mütənasib olaraq artır. Və biz yeni uğurlara imza atdıqca beynəlxalq aləmdə daha sanballı mövqeyi, daha kəsərli sözü olan dövlətə çevrilirik.

Dəfələrlə ən mötəbər beynəlxalq tədbirlərdə, konfranslarda Azərbaycanın öz mövqeyini sərt və birmənalı şəkildə ortaya qoymasının şahidi olmuşuq. Bu baxımdan Prezident İlham Əliyevin beynəlxalq konfranslardakı qətiyyətli çıxışları, erməni faşizminin ifşası istiqamətindəki barışmaz bəyanatları və işğalçı Ermənistanın "demokratik" lideri Paşınyanı siyasi opponent kimi dəfələrlə məğlub etməsi Azərbaycan diplomatiyası tarixinin uğurlu səhifələridir. Artıq Azərbaycan qazandığı uğurların zəminində Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal gündəliyin formalaşması və həyata keçirilməsində əhəmiyyətli rola malik ölkəyə çevrilmişdir.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## İlham Əliyev böhran şəraitində də etibarlı sosial müdafiəni təmin edir

*Əvvəli 1-ci səh.*

### 190 manat birdəfəlik ödəmənin ümumi həcmi 333 milyon manata çatdı

Hər zaman vətəndaşın sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atan cənab İlham Əliyev qlobal böhran dövründə həyata keçirdiyi siyasətlə vədinə sadiqliyini bir daha isbatladı. Prezidentin göstəriş və tapşırıqları nəticəsində reallığa çevrilən sosial layihələrin uğurlu göstəricilərinə nəzər yetirsək bunu aydın görə bilərik.

Karantin dövründə vətəndaşa Prezident qayğısı:

- Məşğulluq və sosial rifaha dəstək tədbirləri 5 milyon nəfəri əhatə edib;
- Dövlət sektorunda çalışan 900 min nəfərin iş yeri və əməkhaqları qorunub;
- Özəl sektor üzrə 760 min nəfərin işsizliklə üzləşməsinin qarşısı alınıb;
- İlin əvvəlindən əmək müqavilələrinin sayı 120 min artıb;
- Aprel-may aylarında 600 min şəxsə 190 manat birdəfəlik müavinət ödənilib;
- 2 ayda 600 min şəxsə ödənilən birdəfəlik müavinət 225 milyon manat təşkil edib;
- İyul ayında 16 şəhər və rayon üzrə 290 min şəxsə 55 milyon manat ödənilib;
- Avqust ayında 13 şəhər və rayon üzrə 278 min nəfərə 53 milyon manat ödəniləcək;
- 4 ayda birdəfəlik ödəməyə yönəldilmiş vəsaitin həcmi 333 milyon manata çatacaq.

Sosial baxımdan həssas şəxslərə sosial dəstək tədbirləri:

- 2 milyon şəxsə sosial ödənişlərin davamlılığı təmin edilib;
- 85 min ailəyə (aylıq orta məbləğ 225 manat) ünvanlı sosial yardım verilib;
- 15 mindən çox tənha və əlil şəxsə evində sosial xidmət göstərilib;
- 100 min ailəyə 2 dəfə ərzaq payı verilib;
- Əhaliyə güzəştli elektrik enerjisi limiti aylıq 100 kvts. həcmində artırılıb;
- Pensiya və təqaüdlər üzrə 2 milyon vətəndaşa 2,8 milyard manat ödənilib;
- Ödənişli ictimai iş yerlərinin sayı 90 minə yüksəlib;
- Özünüməşğulluq proqramının əhatə dairəsi 12 minə çatdırılıb.

### 8142 mənzil və fərdi ev, 6900 avtomobil

Prezident İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı avqustun 6-da videoformatda keçirdiyi müşavirədəki tapşırığına əsasən, əhaliyə göstərilən sosial dəstək tədbirləri daim diqqət mərkəzindədir.

Bununla yanaşı, dövlət başçısı ilin əvvəlində müəyyənləşdirdiyi heç bir sosial layihəni təxirə salmır. Xüsusən də qaçqın və məcburi köçkün və şəhid ailələri, müharibə veteranları üçün nəzərdə tutulan sosial dəstək tədbirləri qlobal böhran şəraitində də reallığa çevrilir.

Azərbaycan azsaylı ölkələrdən biridir ki, həm də sosial mənzil layihələri həyata keçirir. Prezident İlham Əliyevin diqqəti, qayğısı nəticəsində ölkəmizdə şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların mənzillə və fərdi evlərlə təminatı proqramı ildən-ilə genişlənir.

Eyni zamanda Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların minik avtomobilləri ilə təminatı da diqqətdə saxlanılır. Dövlət başçısının xüsusi qayğısı nəticəsində bu istiqamətdə tədbirlər geniş vüsət alır.

Bunu statistik göstəricilər də təsdiqləyir.

Qaçqın və məcburi köçkün, şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı:

*2018-ci ildə şəhid ailələri və müharibə əlillərinə 626 mənzil verilib;*
*2019-cu ildə bu kateqoriyadan olan insanlara 934 mənzil və ya fərdi ev tikilib;*
*2020-ci ildə isə rekord sayda 1500 mənzil və fərdi ev veriləcək;*
*Bu ilin 7 ayı ərzində 554 mənzil tikilərək təhvil verilib;*
*Ümumilikdə, indiyədək həmin ailələrə 8142 mənzil və fərdi ev tikilib;*
*Bu il 7 mindən çox məcburi köçkün ailəsi də mənzillərlə təmin ediləcək.*

Müharibə əlilləri və onlara bərabər tutulan şəxslərin avtomobil təminatı:

*2018-ci ildə bu kateqoriyaya aid şəxslərə 265 avtomobil verilib;*
*2019-cu ildə verilən avtomobilin sayı 600-ə çatdırılıb;*
*2020-ci ildə, böhran dövründə isə 150 avtomobil hədiyyə edilib;*
*Bu ilin qalan dövründə daha 250 avtomobilin verilməsi nəzərdə tutulub;*
*Ümumilikdə, indiyədək bu kateqoriyaya aid şəxslərə 6900 avtomobil verilib.*

### Prezidentin aylıq təqaüdləri, müavinət və pensiya

Bütün bunlarla yanaşı, ölkəmizdə şəhid ailələri həm də Prezidentin aylıq təqaüdü ilə təmin olunurlar. Bu təqaüd 2019-cu ildə 242 manatdan 300 manata çatdırılıb.

Ümumən, ötən dövrdə bu təqaüdün məbləği 3 dəfə artırılıb. Şəhid ailəsi üzvlərinə pensiya təyinatı zamanı üstünlük verilməklə, şəhid ailəsi üzvlərinin əmək pensiyasına əlavə də hesablanır. Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinin hər birinə aylıq sosial müavinət verilir (kommunal və s. xərclərə kompensasiya kimi).

Həmçinin şəhid ailələrinin 16 yaşadək (ümumtəhsil məktəblərində təhsil alanlar 18 yaşınadək) uşaqlarının hər birinə (ailə başçısını itirməyə görə aylıq əmək pensiyası aldıqları halda) aylıq sosial müavinət də ödənilir. Şəhid vərəsələrinə birdəfəlik ödəmə (11 min manat) proqramı artıq 100 faizə yaxın icra olunub. 12281 şəhid hərbi qulluqçunun və şəhid polisin 18 mindən çox vərəsəsi ödəmə ilə təmin edilib.

Eyni zamanda Qarabağ müharibəsi əlilləri aylıq sosial müavinət və ya əmək pensiyası ilə yanaşı, Prezidentin aylıq təqaüdləri ilə də təmin edilirlər. Bu sosial ödənişlər də ötən dövrdə əhəmiyyətli dərəcədə artırılıb, xüsusilə də 2019-cu ildə müavinət və təqaüdlərdə orta hesabla 100 faiz artım edilib.

Belə ki, Qarabağ müharibəsi əlillərinin 16 yaşadək (ümumtəhsil məktəblərində təhsil alanlar 18 yaşınadək) uşaqlarının hər birinə aylıq sosial müavinət də ödənilir. Şəhid ailələrinin və Qarabağ müharibəsi əlilləri övladlarının respublikamızın ali təhsil müəssisələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan uşaqlarının təhsil müddəti ərzində təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Ölkənin qanunvericiliyində şəhid ailəsi üzvləri və müharibə əlilləri üçün bir sıra imtiyaz və güzəştlər də əksini tapıb.

Prezident İlham Əliyevin 21 iyul 2020-ci il tarixli sərəncamı ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olmuş, Çernobıl AES-də qəza nəticələrini aradan qaldırmaqda iştirak edib əlilliyi olmuş şəxslərin, II Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulanların xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillərlə təminatının daha da gücləndirilməsinə şərait yaradır. Sərəncamla bu məqsədlə Prezidentin Ehtiyat Fondundan 2 milyon 878 min 20 manat ayrılması tapşırılıb.

İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində Prezident İlham Əliyevin söylədiyi kimi, bütün bunlar Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Son illərdə həyata keçirilən iqtisadi islahatlar nəticəsində əldə edilən uğurlar bu gün Azərbaycanın istənilən böhranla mübarizəyə hazır olduğunu təsdiqləyir.

Bir sözlə, bütün bunlar həm də onu təsdiq edir ki, Azərbaycan sosial mahiyyətli və humanizm prinsiplərinə söykənən bir dövlətdir. Bu, Prezident İlham Əliyevin ölkə əhalisinin problemlərinə qayğı ilə yanaşdığını, Azərbaycanda sosial ədalət prinsiplərinin bərqərar olmasına xüsusi diqqət göstərdiyini sübut edir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## Pandemiya ilə mübarizə strategiyasının vacib parçası

### Seroloji testlər vasitəsilə xəstəlik keçirmiş, immunitet qazanmış insanların sayını müəyyənləşdirmək mümkün olacaq

*Əvvəli 1-ci səh.*

Yoluxma sürəti yüksək olan bu virusla mübarizənin effektiv nəticəsi məhz qabaqlayıcı, profilaktik tədbirlərin vaxtında və geniş həcmdə aparılmasından asılıdır. Bu baxımdan virusa yoluxmuş şəxslərin düzgün müayinə edilib zamanında aşkarlanması mühüm əhəmiyyət kəsb edir. Ona görə də testlərin keçirilməsinə xüsusi diqqət yetirilməsi olduqca vacibdir. Yalnız bundan sonra yoluxan insanları təcrid etmək, ünsiyyətdə olduqları şəxsləri müəyyənləşdirmək və nəticədə yeni yoluxmaların qarşısını almaq mümkündür.

Azərbaycanda bu istiqamətdə aparılan işlər mühüm qabaqlayıcı və operativ tədbirlər sırasında ilk sırada durur. Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib. Laboratoriyaların sayı pandemiya başlayandan qısa müddət ərzində 5 dəfə artırılaraq 6-dan 31-ə çatdırılıb. Yaxın zamanlarda laboratoriyaların sayının 45-ə çatdırılması nəzərdə tutulub. Ölkəmizdə koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar hər gün 6-7 mindən çox test aparılır. Ötən müddət ərzində ölkədə aparılan testlərin sayı artıq 800 mini ötüb. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada ön sıralardadır.

Növbəti həftədən isə ölkəmizdə COVID-19 pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində əhali qrupları arasında seroloji testlərin keçirilməsinə başlanılacaq. Seroloji testlərin keçirilməsi pandemiya ilə mübarizə strategiyasının vacib bir parçası olduğundan Azərbaycan hökuməti tərəfindən bu istiqamətdə mühüm addımlar atılır.

Testlərin aparılmasında əsas məqsəd əhali arasında COVID-19 xəstəliyinin keçirilməsi haqqında təsəvvürlərin əldə olunması, xəstəliyi keçirmiş şəxslərdə yaranmış immunitet səviyyəsinin öyrənilməsidir. Bu testlər vasitəsilə son 3 ay ərzində xəstəlik keçirmiş, immunitet qazanmış insanların sayını müəyyən etmək mümkün olur. Seroloji testlər vasitəsilə əhali arasında virusa qarşı formalaşmış immunitet səviyyəsinin öyrənilməsi pandemiya ilə mübarizə üçün daha doğru yanaşmalar seçməyə imkan verir.

İndiyədək digər ölkələrdə, əhalisi virusa ən çox yoluxan şəhərlərdə seroloji testlərlə bağlı müxtəlif ciddi tədqiqatlar aparılıb. Məsələn, Almaniyada Oldendorf, Çində Uhan, Hindistanda Mumbay, İsveçrədə Cenevrə kimi şəhərlərdə seroloji testlər keçirilib. Türkiyədə isə COVID-19 xəstəliyinə qarşı immunitet xəritəsini müəyyən etmək üçün bütün ölkə üzrə 153 min nəfər anticisim testindən keçirilib.

### "Analizlər tam təmənnasız götürüləcək"

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Mikrobiologiya İşçi qrupunun rəhbəri, tibb üzrə fəlsəfə doktoru Qumral Ələkbərova bildirib ki, Azərbaycanda seroloji testlərin həyata keçirilməsi üçün fəaliyyət planı hazırlanıb. Onun sözlərinə görə, testlər təsadüfi seçilmiş əhali qrupları arasında könüllülük prinsipi ilə aparılacaq. Bu məqsədlə təsadüfi seçilmiş şəxslərə çağrı mərkəzindən zəng ediləcək, testdən keçməyə razılıq vermiş şəxsin evinə yaşadığı ərazi üzrə poliklinikadan xüsusi təlim keçmiş qanalma tibb bacısı göndəriləcək. Müayinə üçün venadan 3-5 ml qan nümunəsinin alınması kifayətdir. Alınmış qan nümunələri qısa müddətdə laboratoriyaya çatdırılaraq analizdən keçiriləcək. Mütəxəssislər tərəfindən analiz nəticələrinin tibbi və statistik təhlili aparılacaq, yekun nəticələr barədə ictimaiyyət məlumatlandırılacaqdır. Analiz verən hər bir könüllü öz nəticəsini əldə edə biləcək. Bundan əlavə, vətəndaşın arzusu ilə qanın ümumi analizi də həyata keçirilə bilər: "Bəzi şəxslər koronavirusu asimptomatik keçirir. Yəni həmin şəxsin heç xəbəri olmur ki, bu xəstəliyi keçirib, ya yox. Bu testlər vasitəsilə yoxlanılacaq ki, həmin şəxslərdə xəstəliyə qarşı immunitet formalaşıb, yoxsa yox".

Q.Ələkbərova qeyd edib ki, layihəyə Bakı şəhərindən başlanılacaq. İlkin mərhələdə tədqiqatların Bakı, Sumqayıt və Gəncə şəhərlərində aparılması planlaşdırılır: "Bakıda 1500-ə yaxın şəxs tədqiqata cəlb olunacaq. Daha sonra Sumqayıt və Gəncə şəhərlərində həyata keçiriləcək. Analizlər tam təmənnasız götürüləcək. Analiz zamanı vətəndaş istəsə, qanın ümumi analizi də ödənişsiz icra olunacaq. Analizlər alındıqdan sonra laboratoriyalara göndəriləcək. Nəticə əldə edildikdən sonra maksimum 2-3 gün ərzində vətəndaşlara məlumat veriləcək. Statistik məlumatlar toplandıqdan, tam nəticələr əldə edildikdən sonra ictimaiyyətə bu barədə məlumat veriləcək".

Q.Ələkbərova bildirib ki, testlər dövlət tərəfindən alınaraq ölkəyə gətirilmiş Almaniyanın EUROIMMUN şirkətinin istehsalı olan, ABŞ-ın FDA qurumu tərəfindən təsdiq edilmiş reaktivlərlə aparılacaq: "Bu testlərin spesifikliyi ondadır ki, yanlışlıq dərəcəsi yoxdur, 100 faizdir, həssaslığı isə 90-96 faiz arasındadır. Ona görə də etibarlı nəticələr əldə ediləcək. Testlər 18-65 yaş qrupunda olan şəxslər arasında aparılacaq. Bu şəxslər təsadüfi seçilənlərdir. 1-10 yaş arası uşaqlarda immunitetin formalaşması daha gec olur. Onlarda analiz daha çox neqativ nəticə verir. 65 yaş üzərində də nəticələr eynilə digər qrupdakı kimidir. Seçdiyimiz şəxslər hansısa risk qrupuna aid olan şəxslər deyil".

Qeyd edək ki, insan viruslara yoluxduqdan sonra bədəndə qoruyucu zülallar - anticisimlər yaranır. Viruslara qarşı anticisimlərin formalaşması üçün müəyyən vaxt tələb olunur. Digər tərəfdən, formalaşmış immunitetin bədəndə qalması daimi deyil, müvəqqəti ola bilər. Ona görə də seroloji testlərin ən qısa müddətdə aparılması və nəticələrin əldə olunması zəruridir.

***Xəyalə MURADLI, "Azərbaycan"***

## "Azəri-Çıraq-Günəşli"də bütün işlər plan üzrə gedir

### Prezident İlham ƏLİYEV: "Bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir"

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, "Yeni əsrin müqaviləsi" adını alan bu saziş imzalanarkən layihədə iştirak edən şirkətlər qrupunda heç bir dəyişiklik edilməmişdir. Bu da Azərbaycanın mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatı yaratdığının daha bir təsdiqidir. Beləliklə, hazırda AÇG-də BP 30,37, SOCAR 25, MOL (bu il aprelin 16-dan "Şevron" şirkətini əvəz edib) 9,57, İNPEKS 9,31, "Ekvinor" 7,27, "EksonMobil" 6,79, TPAO 5,73, İTOÇU 3,65, ONGC Videş Limited (OVL) 2,31 faiz payla iştirak edirlər.

Keçən ilin aprel ayında AÇG-nin işlənməsinin növbəti mərhələsi olan "Azəri Mərkəzi Şərqi" layihəsinə sanksiya verilib. Bununla da 6 milyard dollar dəyərində olan işlənmə layihəsinin həyata keçirilməsinə başlanıb. Hazırda AÇG üçün yeni bir platforma tikilir.

"Azəri Mərkəzi Şərqi" platforması gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir.



"Bütün dünyada və bütün digər şirkətlərdə olduğu kimi, biz də COVID-19 pandemiyasının yaratdığı bu çətin vəziyyətlə üz-üzəyik, amma bütün fəaliyyətlərimiz davam edir. Qürur hissi ilə deməliyəm ki, biz əsas biznes fəaliyyətlərimizi - "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından hasilat və ixrac əməliyyatlarımızı təhlükəsiz, etibarlı və səmərəli şəkildə davam etdiririk."

Bu sözləri adıçəkilən layihələrin əməliyyatçısı olan BP şirkətinin Yaxın Şərq və Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib. O, həmçinin bildirib ki, "Azəri-Çıraq-Günəşli"nin yeni platforması olan "Azəri Mərkəzi Şərqi"nin tikintisi davam etdirilir: "Baxmayaraq ki, pandemiyanın təsirləri tikinti işlərimizdən də yan keçməyib, amma hələ də planımız bu platformadan ilk nefti 2023-cü ildə əldə etməkdir."

"Azəri Mərkəzi Şərqi" AÇG-nin 9-cu platforması olacaq. Hazırda yataqda 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur.

Qeyd edək ki, Azərbaycanın qaz potensialının da önəmli hissəsi AÇG yataqları hesabına formalaşır. Orada hasil olunan qaz ümumi sistemimizə daxil edilir. Belə ki, AÇG-dən çıxarılan səmt qazının bir hissəsi layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulur. Mavi yanacağın xeyli hissəsi isə Azərbaycanın daxili istifadəsi üçün Səngəçal terminalından SOCAR-a məxsus kəmərlə "Azəriqaz" dövlət qaz şəbəkəsinə ötürülür. Məsələn, bu ilin birinci rübündə AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 7,9 milyon kubmetr, ümumilikdə isə, 0,7 milyard kubmetr səmt qazı verilmişdir. Qazın qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulmuşdur.

Hazırda AÇG-dən hasil edilən neft və səmt qazı platformalardan sualtı xətlər vasitəsilə Səngəçala çatdırılır və buradan ixrac marşrutları ilə karbohidrogenlərin dünya bazarlarına yolu başlanır.

***Flora SADIQLI, "Azərbaycan"***






# Gənclik






● Gələcəyə dəstək

**"Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı!" Çox müdrikcəsinə deyilmiş bu kəlamın arxasındakı vətənpərvərlik hisslərinin yaşadılması olduqca vacibdir. Çünki Vətənimiz təcavüzkarlarla illərdir ki, açıq-aşkar mübarizə və müharibə aparır. Sevindirici haldır ki, Azərbaycan gəncliyi vətəndən çox-çox uzaqlarda belə təəssübkeşliyi və vətənpərvərliyi ilə nümunəyə çevrilib. Ali Baş Komandanın bir çağırışına, əmrinə bənddir ki, təcavüzkar, işğalçı düşmənə öz layiq olduğu yeri göstərsin.**



# "Biz qürbətdə olsaq da, qəlbimiz Azərbaycanla döyünür"

## Xaricdəki vətənpərvər gənclər Ermənistanın təxribatları ilə bağlı yaşadıqları ölkələrdə haqq səslərini ucaldırlar

Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində dövlət sərhədlərini pozaraq mövqelərimizi, dinc sakinləri artilleriya atəşinə tutması soydaşlarımızın, o cümlədən də gənclərimizin etirazına və hiddətinə səbəb olub. Bütün dünya azərbaycanlıları, xüsusən də gənclər yaşadıqları və oxuduqları ölkələrin rəsmi qurumlarına, beynəlxalq təşkilatlara, parlamentlərə müraciət etməklə Azərbaycan dövlətinə və ordusuna dəstək aksiyaları keçirməkdədirlər.

Sosial şəbəkələrdə təxribatla bağlı həqiqətləri dünyaya bəyan etməklə, haqq səsimizi beynəlxalq ictimaiyyətə çatdırmaqla yanaşı, onlar həm də Ermənistanı təcavüzü dayandırmağa çağırırlar. Belə bir məqamda yaşından və sosial mənşəyindən asılı olmayaraq, hər kəs Ali baş Komandan İlham Əliyevə müraciət edərək dövlətimizin sərhədlərinin, ərazi bütövlüyünün bərpası üçün döyüşlərə səfərbər etməsini xahiş edir.

Təcavüzkarın törətdiyi təxribat, ordumuzun buradakı sərhəd zastavalarını ağır artilleriya silahları ilə atəşə tutması nəticəsində verdiyimiz mülki və hərbi itkilər sarsıdıcı olsa da, xalqımızın milli həmrəylik nümayişi bu günlərdə yadda qaldı. Açığı, bəlkə də bu hücuma və ona layiqli cavaba qədər təcavüzkar Ermənistanla yanaşı, onun arxasında dayanan bəzi qüvvələr də inanmazdılar ki, Azərbaycan nəinki ərazisini müdafiə etmək gücünə malikdir, hətta düşmənə ağır zərbə vurmaqla öz yerini göstərmək əzmindədir. Çünki Azərbaycan XX əsrin sonlarındakı pərakəndə dəstələrə deyil, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli növqeyi ilə formalaşan, Cənubi Qafqazda NATO standartlarına cavab verən, vətənpərvər gənclərdən ibarət bir orduya malikdir!

> **"...Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq".**
>
> **İlham ƏLİYEV**


Rauf Şahbazov


Şəhla Kazımova


Mais Nuriyev


Yaşar Musayev

### "Ermənistanın son təxribatı beynəlxalq ictimaiyyətə kimin işğalçı, təcavüzkar olduğunu bir daha göstərdi"

Azərbaycanın Ermənistan tərəfindən növbəti dəfə hücuma məruz qalmasının xaricdə yaşayan bütün azərbaycanlıların hiddətinə səbəb olduğunu qeyd edən Varşava Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin nəzdindəki Azərbaycanşünaslıq Mərkəzinin əməkdaşı Şəhla Kazımova deyir ki, Qarabağ həqiqətlərini Polşa ictimaiyyətinə çatdırmaq üçün hər kəs əlindən gələni etməlidir: "Əvvəllər Polşa mediasında Tovuz rayonunda baş verənlər neytral formada - həm Azərbaycanın, həm də Ermənistanın mövqeyi əks olunmaqla işıqlandırılırdı. Bu, hər bir azərbaycanlının hiddətinə səbəb olurdu ki, nəyə görə təcavüzkar və işğalçı Ermənistan olduğu kimi ictimaiyyətə təqdim edilmir? Hazırda bu məsələdə xeyli irəliləyiş var. Bu gün mediada Azərbaycan Müdafiə Nazirliyinin məlumatına və fotolara da yer verilir, Ermənistanın dinc əhaliyə təcavüzü Polşa ictimaiyyətinə çatdırılır. Biz, azərbaycanlılar da xalqımızın haqq səsini, Ermənistanın təcavüzkar və işğalçı bir dövlət olduğunu əlimizdən gəldiyi qədər yaşadığımız yerli əhaliyə çatdırırıq. Son təxribat birmənalı olaraq göstərdi ki, Ermənistan təcavüzkar ölkədir. Dağlıq Qarabağ deyilən bir ölkə yoxdur və Azərbaycanla məhz Ermənistan vuruşur, həm də Dağlıq Qarabağdan uzaq olan tamamilə başqa bir istiqamətdə. Ermənistanın Tovuza hücumu beynəlxalq ictimaiyyətə kimin işğalçı, təcavüzkar olduğunu bir daha göstərmiş oldu".

### Gənclər Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azad olunması uğrunda ölüm-dirim mübarizəsinə hazırdır

Fəaliyyətini Qarabağ həqiqətlərini Avropada yaymağa həsr etmis Milan Konservatoriyasının professoru Mais Nuriyev deyir ki, Ermənistanın son təxribatına etirazını Niderland parlamentinin qarşısında iştirak etməklə bildirib: "Aksiyaya çox sayda insan toplaşmışdı - demək olar ki, Niderlanddakı bütün diaspor təşkilatları və azərbaycanlılar Ermənistanın təcavüzünə etiraz etmək üçün bir arada idi. Mənim də Azərbaycan və italyan dillərində çıxış etdiyim aksiyada dünya birliyini təcavüzə biganə qalmamağa, Ermənistanın işğalçılıq siyasətinə obyektiv yanaşmağa çağırışlar oldu. Məqsədimiz ermənilərin çirkin əməllərini dünyaya tanıtmaqdır. Avropa ölkələrindən tələb edirik ki, təcavüzə son qoyulsun. Biz Azərbaycana sülh istəyirik. Lakin igid oğullarımız Ali Baş Komandanın əmri ilə tarixi Vətənin azadlığı uğrunda ölüm-dirim mübarizəsinə də hazırdır".

### "Azərbaycan xalqının əsgəriyik, hər zaman yanındayıq"

ABŞ-ın Nyu York şəhərindəki Upstate Tibb Universitetinin professoru Rauf Şahbazov hər bir azərbaycanlı kimi hesab edir ki, ermənilərin və onların havadarlarının layiqli cavabı verilməlidir: "Biz, Amerikadakı azərbaycanlılar həm təşkilat olaraq, həm də fərdi şəkildə Azərbaycanın mövqeyini buradakı cəmiyyətə çatdırmaq üçün əlimizdən gələni edirik. Bu istiqamətdə fəaliyyətimizi bundan sonra da davam etdirəcəyik. Biz də Azərbaycan xalqının əsgərləriyik - hansı ölkədə yaşadığımızdan asılı olmayaraq, Ali Baş Komandanın bütün əmrlərini yerinə yetirəcəyik".

### Milli həmrəyliyə çağırış

Ermənistanın son təxribatı ilə bağlı həmvətənlərinə müraciət edən Nürnberq Universitetinin müəllimi, elmlər doktoru Yaşar Musayev isə soydaşlarımızı birliyə çağırıb: "Təəssüf ki, bu günədək qəbul olunmuş qərarlara və beynəlxalq qətnamələrə məhəl qoymayan işğalçı Ermənistanın vətənimizə qarşı təcavüzü davam etməkdədir. Bu gün biz qürbətdə olsaq da, hər birimizin qəlbi ordumuzla, Azərbaycan əsgəri ilə birgə döyünür".

Avstriyada fəaliyyət göstərən Avstriya-Azərbaycan Mədəniyyət və İş Adamları Dərnəyinin (Azeri-DER) təşkilatçılığı ilə keçirilən aksiyada da bu ölkədə yaşayan soydaşlarımız, türk icmasının təmsilçiləri, mətbuat nümayəndələri iştirak ediblər. Aksiya iştirakçıları "Ermənistanın işğalına son qoyulsun!", "Ermənistan BMT qətnamələrini icra etməlidir!", "Biz yalnız beynəlxalq hüquqla torpaqlarımızı geri istəyirik!", "Qarabağ Azərbaycandır!" şüarlarını səsləndiriblər.

Aksiya Azərbaycanın və Avstriyanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Sonra Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində törətdiyi təxribat zamanı şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İştirakçılar yerli sakinləri və mətbuat nümayəndələrini son günlərdə baş verən hadisələr və ümumiyyətlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və hazırkı vəziyyət barədə məlumatlandırıblar.

Xaricdə yaşayan soydaşlarımızın bu gün vahid mərkəzdən koordinasiya edilməsi, Vətənimizin təcavüzə məruz qalmasının dünya ictimaiyyətinə çatdırılması Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinin mühüm hissəsinə çevrilib.

Belə genişmiqyaslı kütləvi tədbirlər gəncliyin öz dövlətinə, Vətəninə və xalqına, ilk növbədə isə, Ali Baş Komandana sədaqətini nümayiş etdirir. Cənab Prezident heç də ötəri yerə demir: "Biz birlikdə güclüyük!"

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Vətənpərvərlik tərbiyəsi

# Gənclər Vətənin müdafiəsinə hazırdırlar




**Qazax Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "İlk çağırışda Vətənin müdafiəsinə qalxan gənclər" mövzusunda onlayn videokonfrans keçirilib.**

Videokonfransda Qazax Rayon İcra Hakimiyyəti aparatının əməkdaşları, rayonda fəaliyyət göstərən Gənclər və idman idarəsinin, "Gənclər evi" Sosial Xidmət Müəssisəsi əməkdaşları, könüllülər, eləcə də Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Milli Məclisin deputatı Səməd Seyidov iştirak etmişlər.

Videokonfransı giriş sözü ilə RİH başçısı Aparatında İctimai-siyasi və humanitar məsələlər şöbəsinin məsul işçisi Gülnar Quluyeva açaraq iştirakçıları salamlamış, tədbirin əhəmiyyətindən danışmışdır. Əvvəlcə, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı düşmən hücumunun qarşısını alarkən şəhid olmuş igid Vətən oğullarının xatirəsinə ehtiram göstərilmiş, yaralı hərbçilərimizə tez bir zamanda sağalıb yenidən ordu sıralarına qayıtmaları arzu edilmişdir. Tovuzun sərhəd bölgəsində gedən döyüşlərdə Qazaxın Yuxarı Salahlı kənd sakini, mayor Namiq Əhmədovun da qəhrəmancasına şəhid olması diqqətə çatdırılaraq bütün şəhidlərimizin, eləcə də Namiq Əhmədovun əziz xatirəsinin daim yad olunacağı qeyd edilmişdir.

Tədbirdə şəhid ailələrinə və müharibə əlillərinə göstərilən dövlət qayğısından da söz açılıb. Qeyd edilib ki, iyulun 21-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması həmin qayğının daha bir bariz nümunəsidir. Dövlət tərəfindən təqdim olunan həmin binada şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə mənzil və avtomobillərin verilməsi bir daha onu sübut edir ki, Azərbaycanda şəhid ailələrinə və müharibə əlillərinə diqqət və qayğı hər zaman olub, bundan sonra da olacaq.

Videokonfransda o da vurğulanmışdır ki, bu gün ölkəmiz baxmayaraq ki, gözə görünən və görünməyən iki düşmənlə - koronavirusla (COVID-19) və mənfur düşmənimiz olan ermənilərlə mübarizə aparır, bununla yanaşı, ayaqda durmağı da bacarır və iqtisadiyyatını qoruyur. Bu gün Azərbaycan güclü dövlət olaraq öz sözünü deyə bilirsə, çətinliklərə rəğmən, iqtisadiyyatı inkişaf edirsə, sosial layihələr uğurla icra olunursa, bu, ölkə rəhbərinin yürütdüyü məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Dövlət başçısının söylədiyi kimi, indi Azərbaycan o vaxtkı Azərbaycan deyil, indi Azərbaycan güclü dövlətdir və xalqla iqtidar arasında olan həmrəylik, birlik bu gücü daha da artırır. Tovuz hadisələrindən sonra minlərlə insanın Şəhidlər xiyabanına doğru ordumuza dəstək məqsədilə yürüş etməsi, Vətənin müdafiəsinə qalxması bir daha göstərdi ki, Azərbaycan dövləti istənilən vaxt xalqına arxalana bilər. Ürəyi Vətən eşqi ilə döyünən mərd oğullar bu dəfə də düşmənin məkrli niyyətlərini alt-üst etdilər. Bu bir daha göstərdi ki, Azərbaycanda xalqla-dövlət, xalqla-ordu arasındakı birliyi hər hansı şər qüvvə sarsıda bilməz.

Videokonfrans iştirakçılarına səmimi salamlarını çatdıran Milli Məclisin deputatı Səməd Seyidov qeyd etmişdir ki, Tovuzda baş verənlər bir daha onu göstərdi ki, bu, ermənilərin törətdiyi birinci təxribat deyil. Deputat son hadisələrin ermənilərin düşündüyü kimi getmədiyini diqqətə çatdırmışdır. "Tovuzda baş vermiş hadisələr təkcə Ordumuzun gücünü deyil, dövlət-xalq birliyini, həmrəyliyini də nümayiş etdirdi", - deyən Səməd Seyidov bu həmrəyliyin tarixi köklərinin olduğunu bildirmişdir. Təkcə paytaxtda yaşayan vətəndaşların deyil, respublikamızın bütün bölgələrində, o cümlədən Qazax, Ağstafa, Tovuz rayonlarında yaşayan sakinlərin də əsl həmrəylik nümayiş etdirdiklərini bir daha diqqətə çatdırmışdır.

Videokonfransda Qazax RİH başçısı Aparatında baş məsləhətçi Teybə Hüseynova da çıxış edərək demişdir ki, Tovuz hadisələri və həmin döyüşlərdə torpaqlarımızın bütövlüyü naminə igid oğullarımızın şəhid olması xəbəri istər Azərbaycanda, istərsə də ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızı da məyus etdi. Lakin bu, bizi sarsıtmadı. Çünki bizim düşünülmüş, uzaqgörən siyasət yürüdən Prezidentimiz, Ali Baş Komandanımız və onun ətrafında sıx birləşməyi bacaran xalqımız və ordumuz var. Dövlət başçısı bütün çıxışlarında bizləri hər zaman ruhlandırırsa, Ordumuzun gücünü və qüdrətini fəxrlə, şərəflə dilə gətirirsə, bizlərin də ruhdan düşməyə haqqımız çatmır. Əksinə, biz sözümüzlə, əməlimizlə, atdığımız addımlarla ölkə rəhbərinin yanında olmalı və onun yürütdüyü siyasəti bir nəfər kimi dəstəkləməliyik.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

● "Könüllülər ili"nin gəncləri

# Fəallığımızı artırırıq

**Gənclər hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Onlarla düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci elm, təhsil, idman, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir.**



Gənclər cəmiyyət həyatının bütün sahələrində fəallıq göstərir, ölkəmizin iqtisadi və hərbi qüdrətinin artması, siyasi nüfuzunun yüksəlməsi, milli-mənəvi və ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi işinə əhəmiyyətli töhfələr verirlər. Ona görə də dövlətin gənclər siyasəti bu gün çox önəmlidir. Sevindirici haldır ki, gənclik Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsləri ilə reallaşan bütün layihələrin icrasında xüsusilə fərqlənir.

Təhsil aldığım Bakı Dövlət Universitetinin tələbələri də dövlət gənclər siyasətindən bəhrələnərək özlərinin potensialını artırır, ictimai fəallıq göstərirlər. Universitetimizin tələbə-gənclərdən ibarət könüllü dəstələri koronavirus bəlasının ölkəmizdə yayılmağa başlamamışdan öncə də respublikamızda, xüsusən paytaxt Bakıda keçirilən bütün tədbirlərdə yaxından iştirak edib.

Dövlət rəhbərimizin ölkə gəncliyi ilə bağlı arzularının reallaşmasında, irəli sürdüyü davamlı inkişaf konsepsiyasının uğurla həyata keçirilməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xidmətləri böyükdür. Onun irəli sürdüyü layihələr, Heydər Əliyev Fondunun bu layihələrin icrası istiqamətində gördüyü işlər cəmiyyətin ümumi potensialını səfərbər edir. Gənc nəslə öz bilik və bacarıqlarını nümayiş etdirməkdən ötrü bərabər imkanlar yaradır. Mehriban xanım Əliyevanın elmin, təhsilin dinamik inkişafı, gənc nəslin təlim-tərbiyəsinin yüksək səviyyədə qurulması, yeniyetmələrin sabahın layiqli vətəndaşları kimi yetişməsi istiqamətində məqsədyönlü fəaliyyəti biz gənclər üçün parlaq vətənpərvərlik nümunəsidir.

Azərbaycan gəncliyi bu siyasəti dəstəkləyir, ölkəmizin xoşbəxt gələcəyini, yeni qüdrətli mərhələlərə yüksəlməsini bu strateji inkişaf kursunda görür. Gənclər bu gün məsul vəzifələrə irəli çəkilir, onlara yüksək etimad göstərilir. Ən əsası odur ki, tapşırılan işlərin icrasında xüsusi fəallıq göstərirlər.

Gənclərin simasında idarəetmə sistemi zamanın çağırışlarına uyğun dəyişir, ölkə həyatına mütərəqqi meyillər daxil olur. Azərbaycan gəncliyi öz bilik və bacarıqları ilə ölkəmizdə aparılan inkişaf proseslərinə töhfə verir. Gənclərin könüllü xidmət sahələri daha da genişlənir.

Dövlət başçısı gənclərlə çoxsaylı görüşlər keçirir, bilikli olmaq üçün yaxşı oxumağın zəruriliyini qeyd edir. İstəyir ki, öz sahələrində peşəkar olsunlar və fəaliyyətləri ilə ölkəmizin inkişafına daha böyük xidmət göstərsinlər. Doğrudan da, bu gün gənclər ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Eyni zamanda onlar xoşagəlməz hallara qarşı mübarizədə də öndədirlər.

Azərbaycan Prezidenti dünyanı çənginə almış, pandemiyaya çevrilərək ölkələri iflic halına salan, insanların sağlamlığına qənim kəsilən, iqtisadiyyata ağır zərbə vuran koronavirusla bağlı görülən tədbirlərə və əldə edilən son nəticələrə diqqət ayırarkən də gənclərin bu sahədə fəallığını xüsusi vurğulayıb. Səhiyyə sisteminin qısa müddət ərzində yenidən qurulmasını, burada xüsusilə TƏBİB-in fəaliyyətini yüksək qiymətləndirən dövlət başçısı onu da bildirib ki, bu sahədə xidmət göstərənlərin əksəriyyəti gənclərdir. Bu nailiyyətlərdə gənc mütəxəssislərin, o cümlədən peşəkarlıqları və vətənpərvərlikləri ilə seçilən könüllülərin əməyi çox böyükdür.

*Səriyyə HƏSƏNOVA,*
*BDU-nun Beynəlxalq Münasibətlər fakültəsinin tələbəsi, könüllü*

● Tribuna

# Hər bir gənc örnək olmalıdır

## Azərbaycan Prezidenti yeni nəslin üzərinə çox böyük məsuliyyət qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gəncliyimizin əzmini, potensialını, onların vətənpərvər ruhda yetişməsini yüksək qiymətləndirərək bunun dövlət siyasətinin tərkib hissəsi olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır: "Mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm. Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar... Şadam ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Bütövlükdə, gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək".**



Dövlət başçısının qeyd etdiyi kimi, gənclərimizin bilikli, intellektual, dünyagörüşlü böyüməsi qarşıda duran əsas vəzifələrdən biri və ən vacibidir. Əlbəttə, dövlətin gəncliyə belə qayğısı cavabsız qalmır. Onlar da öz üzərlərinə düşən vətəndaşlıq borcunu dərk edir, oxuduqları və çalışdıqları sahələrdə öndə olmağa can atırlar. Gəncliyin potensialından maksimum dərəcədə istifadə edilməsindən ruhlanan yeni nəsil ona tapşırılan vəzifənin şərəfini və məsuliyyətini dərk etməli, yüksək qiymətləndirməli və əməli fəaliyyətləri ilə qarşılamalıdırlar. Mən də bir tələbə kimi dövlətimizin gəncliyə dəstəyini öz üzərimdə daim hiss edir, bunun müqabilində çalışıram ki, fəallığımı daha da artırım.

Əslən Laçın rayonundan olsam da, Bakıda dünyaya göz açmışam. Ş.Əfəndizadə adına 13 saylı tam orta məktəbi bitirib Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat fakültəsinin dünya iqtisadiyyatı ixtisasına qəbul olmuşam. Hazırda IV kurs tələbəsiyəm.

Kiçik yaşlarımdan musiqi ilə məşğul olmuşam. Niyazi adına 22 saylı Musiqi Məktəbində xalq çalğı alətləri şöbəsinin əvvəlcə tar, daha sonra isə xanəndəlik siniflərində təhsil almışam. İstər orta, istərsə də hazırda ali məktəbdə təhsil illərində ictimai fəallardan sayılmışam. Universitetdə fəaliyyət göstərən "İqtisadçı Vətənpərvərlər" Təşkilatının sədriyəm. Bu xətlə dəfələrlə cəbhə bölgələrinə səfər etmişik. 2019-cu ildə Müdafiə Nazirliyinin və universitetimizin birgə təşkilatçılığı ilə təşkil olunan "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" adlı Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası çərçivəsində igid döyüşçülərimizin qəhrəmancasına qoruduğu Tovuzun ön cəbhə xəttinə səfər etmişik. Həmin aksiyanın fəal iştirakçısı kimi Müdafiə naziri general-polkovnik Zakir Həsənovun mükafatı ilə təltif olunmuşam.

2018-ci ildə Müdafiə Nazirliyi ilə Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyətinin birgə keçirdiyi "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsində qrup rəhbəri olmuş, yekunda fəxri fərman və pul mükafatına layiq görülmüşəm. "Azərbaycan-Qazaxıstan" Respublika Dostluq Cəmiyyətinin üzvüyəm. Tələbələrin II Qurultayının nümayəndəsi olduğumdam qürur hissi keçirirəm.

Universitetin Yaradıcılıq mərkəzinin üzvü kimi musiqi sahəsində də uğurlarım az olmayıb. 2016-cı ildəTəhsil Nazirliyinin və Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzinin birgə həyata keçirdiyi Nizami Gəncəvinin 875 illik yubileyinə həsr olunmuş incəsənət sahələri üzrə baxış-müsabiqəsində "N.Gəncəvinin sözlərinə ən yaxşı muğam ifası" nominasiyasında 1-ci yerə layiq görülmüşəm. Ötən il Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Tələbə Baharı" XII Ümumrespublika yaradıcılıq festivalında "Muğam" musiqi nominasiyasında II, bu il isə I yeri qazanmışam.

Prezident İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan olunması münasibətilə təhsil aldığım universitetin Yaradıcılıq mərkəzi ilə birgə Türkiyənin paytaxtı Ankara şəhərində Nəsimiyə həsr olunmuş tamaşada xanəndə kimi çıxışım Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən təşəkkürnamə və üzərində Nəsiminin rəsmi olan bürünc xatirə pul nişanı ilə qiymətləndirilib.

Uşaqlıqdan vətənə bağlı ruhda böyümüşəm. Ali Baş Komandanın və qüdrətli Azərbaycan Ordusunun gücü ilə doğma torpaqlarımızı düşməndən azad edəcəyimizə əminəm. Dövlət başçısının son vaxtlar Ermənistanın hakim dairələrinə, eləcə də dünyanın aparıcı təşkilatlarına verdiyi mesaja görə qürurlanır və mən də Ali baş Komandanın verəcəyi əmrə hər an hazır olduğumu bildirirəm! Biz Azərbaycan gəncliyi Vətənimizi, müstəqil dövlətimizi, Prezidenti və Ali baş Komandanımızı göz bəbəyi kimi qorumağa hazırıq! Biz hansı sahənin mütəxəssisi olmağımıza baxmayaraq, Vətənin çağırışına səs verməliyik. Axı mən həm də ataanamın doğulduğu yurdun övladıyam! Sultan bəyin nəslinin davamçılarından biri kimi sözümə əməlimlə cavab verməyə hazıram. O yurdlar bizi, əsl sahiblərini gözləyir!

*Yusif CƏFƏRBƏYLİ,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin IV kurs tələbəsi, "İqtisadçı Vətənpərvərlər" Təşkilatının sədri*

# DTX: Xarici İşlər Nazirliyinin bəzi vəzifəli şəxsləri ilə bağlı aparılan istintaq çərçivəsində Azərbaycanın Serbiyadakı səfiri tutulub

Məlumat verildiyi kimi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən sui-istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran əməllərə yol vermələri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə Xarici İşlər Nazirliyinin İşlər idarəsinin müdiri, nazirliyin Tender komissiyasının sədri Fərhad Mollazadə, Konsulluq idarəsinin rəisi Faiq Bağırov və digərləri vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, rüşvət alma faktlarına görə cinayət məsuliyyətinə cəlb edilərək barələrində məhkəmənin qərarları əsasında həbs qətimkan tədbiri seçilib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, davam edən cinayət işi üzrə həyata keçirilən istintaq-əməliyyat tədbirləri zamanı Xarici İşlər Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan dövlət büdcə vəsaitlərinin mənimsənilməsi ilə bağlı yeni məlumatlar əldə edilib, toplanılmış materiallar əsasında müvafiq qərarla kompleks maliyyə-təsərrüfat fəaliyyəti üzrə yoxlama təyin edilib.

Maliyyə yoxlamaları zamanı Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda, Bosniya və Herseqovinadakı səfiri Həsənov Eldar Hümbət oğlu tərəfindən xeyli miqdarda büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməməsi və digər qanun pozuntularının törədilməsinə dair əsaslı şübhələr müəyyən olunub. Aparılan istintaq çərçivəsində Eldar Həsənov şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir. Cinayət işi istintaqı barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# Paşinyanın növbəti saxtakarlığı

## Ermənistan yeni Milli Təhlükəsizlik Strategiyasında işğal faktını öz müqəddəratını təyinetmə prinsipi ilə ört-basdır etməyə çalışır

*Həyata keçirdiyi işğalçılıq siyasətini hər vəchlə davam etdirməyə çalışması bu gün Ermənistanı bütün sferalarda daha böyük problemlər məngənəsinə yuvarlamaqdadır. Təcavüzkar ölkənin özündə də açıq etiraf edilir ki, Azərbaycanla müharibə vəziyyəti Ermənistanda bütün vacib sahələrdə yaşanan tənəzzülün kökündə dayanan ən ümdə səbəblərdən biridir.*

Elə bu səbəbdən də artıq Ermənistanda açıq şəkildə belə fikirlər səslənir ki, ölkə hakimiyyəti konstruktiv mövqe nümayiş etdirməli, Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışmalıdır.

Lakin Paşinyan iqtidarı hələ də reallıqla barışmaq niyyətində deyil. Əksinə, mövcud Ermənistan hakimiyyəti destruktiv mövqe nümayiş etdirərək ölkəni daha böyük problemlər burulğanına sürükləyir, işğalçılıq niyyətini açıq bəyan etməklə region ölkələri ilə münasibətlərini daha da pisləşdirir. Hətta iş o yerə çatıb ki, Paşinyan ərazi iddialarında olduqlarını açıq şəkildə meydana qoyur.

Bu günlərdə Ermənistan özünün yeni Milli Təhlükəsizlik Strategiyasını ictimaiyyət üçün açıqlayıb. Strategiyada şovinist, ksenofob və irqçi dəyərlər təbliğ edilir. Erməni xalqının böyüklüyü, onun digər xalqlardan üstünlüyü barədə, eləcə də qonşu xalqlara qarşı dözümsüzlük kimi mesajlar verilir.

Strategiyaya ön söz kimi yazılmış qeydlərdə baş nazir N.Paşinyan geniş şəkildə erməni tarixinə istinadlar edir, sənəddə Ermənistan-Azərbaycan münaqişəsinə dair çoxsaylı istinadlar edilir, Azərbaycan tərəfi günahlandırılır və guya Azərbaycanda ermənifobiyanın olduğu bildirilir. Bundan əlavə, sənəddə Ermənistanın işğal olunmuş Azərbaycan torpaqlarında yaratdığı qanunsuz rejimlə bağlı məqamlar yer alır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, strategiyada münaqişə ilə bağlı fakt və arqumentlər də saxtadır.

Qeyd edib ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonunu işğal edib. Ermənistan azərbaycanlılara qarşı soyqırımı törədib, etnik təmizləmə həyata keçirib, müharibə cinayətləri törədib. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinə baxmayaraq, Ermənistan hələ də öz ordusunu işğal etdiyi ərazilərdən geri çəkməyib: "Ermənistan işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət, o cümlədən qeyri-qanuni məskunlaşma siyasəti aparır. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan izlərini yox etməyə çalışır. Ermənistan təmas xəttində və dövlət sərhədində atəşkəsi kobud şəkildə pozaraq təxribatlar törədir, qəsdən Azərbaycanın mülki əhalisini və obyektlərini atəşə tutur. Ermənistan danışıqlarda maraqlı deyil, süni olaraq status-kvonu uzatmağa və işğalı möhkəmləndirməyə çalışır".

Bütün mühüm parametrlər, o cümlədən hərbi müstəvidə Ermənistan üzərində böyük üstünlüyə malik Azərbaycan dəfələrlə Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllində maraqlı olduğunu bəyan edib. Bu hal eyni zamanda Azərbaycanın bu vaxta kimi işğalçı ölkəyə etdiyi ən böyük güzəşt sayılır. Amma ölkəmiz belə vəziyyətdən istifadə edib Ermənistanın işğal siyasətini uzatmasını da qətiyyən qəbul etmək niyyətində olmadığını ən yüksək səviyyədə beynəlxalq ictimaiyyətin, o cümlədən münaqişənin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin diqqətinə çatdırıb.

Xatırladaq ki, sənəddə xalqların öz müqəddəratını təyinetmə prinsipinə bir neçə dəfə istinadlar edilir. Qeyd edilir ki, qondarma qurumun öz müqəddəratını təyinetmə hüququ qeyri-şərtsiz tanınmalıdır. Ermənistan işğal faktını öz müqəddəratını təyinetmə prinsipi ilə ört-basdır etməyə çalışır. Hikmət Hacıyev bildirib ki, heç bir halda bu prinsip Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə aid edilə bilməz. Bu, öz müqəddəratını təyinetmə yox, işğaldır. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və buna alternativ yoxdur: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək".

Vurğulanıb ki, qondarma qurumun qeyd-şərtsiz və məhdudiyyətsiz öz müqəddəratını təyinetmə hüququnun tanınmasını tələb edən və bu qanunsuz rejimi "azad ölkə" kimi tanıyan bu strategiya sənədi özlüyündə Ermənistan tərəfindən ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesinə vurulmuş növbəti ağır zərbədir. Həmsədrlər və ümumiyyətlə beynəlxalq ictimaiyyət bu sənədə reaksiya verməlidir. Ermənistanın özünə aid olan bir sənəddə başqa dövlətin ərazisinə dair şərhlərin verilməsi işğalçılıq siyasətinin bariz nümunəsidir.

Ümumiyyətlə, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən işğalçı ölkənin baş nazirinin üzərinə düşəcək. Azərbaycan tərəfi məsələni kifayət qədər konkret və sərt şəkildə qoyub. Bakının mövqeyi bundan ibarətdir ki, Ermənistanın mövcud rəhbərliyinin təcavüzkar və qəbuledilməz Qarabağ siyasəti Qarabağ danışıqlarını pozmağa yönəlib. Belə vəziyyət öz növbəsində münaqişənin alternativ yolla həllini aktuallaşdırır. Azərbaycan onu da açıq bəyan edir ki, Nikol Paşinyanın hər dəfə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin danışıqlar masasına gətirilməsi barədə iddialarının yeganə məqsədi danışıqlar prosesini pozmaqdan ibarətdir.

Azərbaycan ərazilərinin gücdən istifadə edərək hərbi işğalının davam etdirilməsinə görə məsuliyyət daşıyan tərəf Ermənistandır. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə görə isə, Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmayana qədər Ermənistan bu məsuliyyətdən qaça bilməz.

Digər tərəfdən, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təqdim olunan və hazırda müzakirə edilən bütün sənədlərdə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi kimi erməni və azərbaycanlı icmaları müəyyən edilib. Rəsmi Bakı Ermənistanın baş nazirinə hər dəfəsində ziddiyyətli açıqlamalarla çıxış etmək əvəzinə həmin sənədləri oxumağı tövsiyə edir. Amma Paşinyan bütün bunların əvəzinə təxribat xarakterli və ziddiyyətli açıqlamalarla çıxış edərək vəziyyətin gərginləşdirilməsinə və danışıqlar prosesinin pozulmasına yönəlik addımlar atır.

Bütün bunlara görə isə məsuliyyət birbaşa Ermənistanın və onun baş nazirinin üzərinə düşür. Görünən budur ki, Ermənistanın siyasi-diplomatik başbilənləri müasir geosiyasi proseslərin sürətli yeniləşməsi qarşısında reallığı qəbul etməkdə acizdirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azərenerji" gənc kadrları önə çəkir

*"Azərenerji" gənc kadrları önə çəkmək, peşəkarlara şərait yaratmaq, yeni kadrları işə cəlb etmək üçün pandemiya şəraitinə uyğun olaraq müxtəlif tədbirlər həyata keçirir.*




Belə ki, bu ilin aprel ayında yenidənqurmadan sonra istifadəyə verilən "Azərenerji"nin yeni kompleksindəki Tədris Mərkəzində insan resurslarının inkişafı və elektroenergetikanın bütün sahələrini əhatə edən davamlı onlayn kurslar təşkil olunur. Dərslər həm "Azərenerji"nin əməkdaşları, həm də ölkənin bu sahə üzrə ixtisaslaşmış qabaqcıl alimləri və mütəxəssislərinin iştirakı ilə həyata keçirilir.

Dərslər və məşğələlər Tədris Mərkəzindən idarəolunmaqla simulyasiya proqramları vasitəsilə yerlərdəki elektrik stansiyaları, yarımstansiyalar və şəbəkələrdə də təşkil olunur. Elektrik stansiyaları və şəbəkələrin mühəndis, maşinist, eləcə də əməliyyat heyətinə aid olan əməkdaşlar simulyasiya proqramlarında enerji blokun isti və soyuq rejimdən işə qoşulması, generatorların sinxronlaşdırılmasından tutmuş operativ əməliyyatlar və əks qəza məşqlərinə qədər bütün prosesləri öyrənirlər.

Tədris otaqlarında müdavimlərin müstəqil işləmələri üçün trenajorların elektrik stansiyaları, yarımstansiyalar və şəbəkələrə aid avadanlıqlarla təchiz olunması onlayn dərslərin keçirilməsinə münbit şərait yaradıb.

***"Azərbaycan"***


## Azərbaycan Respublikası "Azərenerji" ASC
## Müxtəlif növ boyaların və fırçaların satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini **dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra **https://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** iştirakçı kimi qeydiyyatdan keçə bilərlər. Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-05-56.

İddiaçı şirkətlərin asan/elektron imzaları olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı **dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.**

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 sentyabr 2020-ci il saat 09:00-a qədər, bank zəmanəti və tender təklifini isə 15 sentyabr 2020-ci il saat 09:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri 16 sentyabr 2020-ci il saat 09:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Maliyyə Nazirliyi
## *açıq tender elan edir*

**Tenderi keçirən:**
**Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**

**Ünvan:**
**Bakı şəhəri, Az 1022, S. Vurğun küçəsi, 135**

LOT 1 - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və tabeliyindəki qurumların inzibati binalarının (Daşınmaz əmlakın icbari sığortası üzrə) sığortalanmasının satın alınması.

**İştirak haqqı: 500 manat**

LOT 2 - Maliyyə Nazirliyinin inzibati binasındakı Cisco sisteminə 6 ədəd "CiscoWebex" lisenziyalarının satın alınması.

**İştirak haqqı: 100 manat**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.
**Tenderdə iştirak haqqı Portalda "ASAN ödəniş" sistemi ilə ödənilməlidir.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün Portalda tender üzrə tələb olunan ilkin və texniki sənədləri təqdim etməlidirlər:

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri, tender təklifi ilə bank təminatı sənədlərini Portal vasitəsilə Portalda təyin edilmiş vaxtlarda təqdim etməlidirlər. Tender təklifləri elektron Portalda təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***


# Beynəlxalq aləm

## Şri-Lankanın Prezidenti yeni hökumətin andını qəbul etdi

Şri-Lanka Prezidenti Qotabaya Racapaksa ötən həftə keçirilən parlament seçkilərinin nəticələrinə əsasən formalaşan ölkənin yeni hökumətinin nazirlərinin andını qəbul edib. Bu barədə TASS Agentliyi xəbər verir.

Hindistanın "Pioneer" qəzeti yazır ki, yeni Nazirlər Kabinetində əsas vəzifələri Prezidentin yaxın qohumları tutublar. Şri-Lankanın Baş naziri yenidən əvvəlki hökumətə rəhbərlik edən, dövlət başçısının qardaşı Mahinda Racapaksa olub. O, həmçinin ölkənin maliyyə idarəsi də daxil olmaqla, daha üç nazirliyə rəhbərlik edəcək.

Qotabaya Racapaksa əvvəlki kimi Müdafiə naziri vəzifəsini də icra edəcək.

Baş nazirin oğlu Namal Racapaksa Gənclər və İdman naziri vəzifəsinə yiyələnib.

Şri-Lanka Prezidentinin böyük qardaşı Camal Racapaksa Daxili Təhlükəsizlik Nazirliyinə rəhbərlik edəcək.

Xarici İşlər naziri postunda Dineş Qunavardena qalıb.

Avqustun 5-də Şri-Lankada keçirilən parlament seçkilərində Mahinda Racapaksın "Şri-Lankanın Xalq Cəbhəsi" Partiyası inamlı qələbə qazanıb.

## Venesuelanın vitse-prezidenti COVID-19-a yoluxdu



Venesuelanın vitse-prezidenti, Rabitə və informasiya naziri Xorxe Rodrigez yeni koronavirus infeksiyasına (COVID-19) yoluxmuşdur. Bu barədə siyasətçi sosial şəbəkələrdə öz səhifəsində yazıb: "Mən özümü yaxşı hiss edirəm, amma virusun öhdəsindən gəlmək üçün təcrid olmalıyam və lazımi təhlükəsizlik tədbirlərinə riayət etməliyəm". Ötən ay Venesuela Milli Təsisçi Məclisinin sədri Diosdado Kabelyonun COVID-19 testi müsbət nəticə vermişdi.

"Worldometer" internet portalının məlumatına görə, Venesuelada koronavirusa 29088 yoluxma və 247 ölüm halı qeydə alınıb.

## Çində daşqın: 200-dən çox insan ölüb və itkin düşüb



Çində güclü yağışların törətdiyi daşqınlar nəticəsində 200-dən artıq insan həlak olub və itkin düşüb. Bu barədə "Anadolu" Agentliyi xəbər verir.

ÇXR Fövqəladə Hallar İdarəsindən jurnalistlərə verilən məlumata görə, ümumilikdə ölkə üzrə 219 nəfər həlak olub və itkin düşüb. 54 min ev dağılıb.

Daşqından dəyən zərər təxminən 25 milyard dollar qiymətləndirilir. Ölkədə daşqınların yaratdığı 25,7 milyard dollar (178,9 milyard yuan) iqtisadi itkilər bu təbii fəlakətdən son 5 ildə yaranmış orta zərərdən 15,9 faiz çoxdur.

İyun ayından etibarən davam edən daşqınlar nəticəsində Çinin 24 vilayətində 2 milyon adam öz evlərini tərk etmək məcburiyyətində qalıb.

## İndoneziyada Sinabunq vulkanı püskürdü



İndoneziyada Sumatra adasının şimal hissəsində yerləşən Sinabunq vulkanı oyanıb. Bu barədə "İnterfax" agentliyi xəbər verir. Məlumata görə, ətrafdakı yollar və evlər qalın kül qatı ilə örtülüb. Sinabunq fəal olaraq qalır və 2010-cu ildə oyanışından sonra vaxtaşırı püskürür. Bundan əvvəl 400 il ərzində vulkan sakit idi.

# Azərbaycanda koronavirus infeksiyasından daha 211 nəfər sağalıb, 91 yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 211 nəfər sağalıb, 91 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 33 min 915 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 31 min 269 nəfər müalicə olunaraq sağalıb, 500 nəfər vəfat edib. Aktiv xəstə sayı 2146 nəfərdir.

Ötən müddət ərzində 812 min 33 test aparılıb. Dünənki test sayı isə 7520-dir.

## "Bakı Metropoliteni" QSC III yeni ("Bənövşəyi") xəttinə aid "B-3" stansiyasının yerüstü sahəsinin abadlaşdırılması layihəsi çərçivəsində yaşıllaşdırma işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1.** Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "B-3" stansiyasının yerüstü sahəsinin abadlaşdırılması layihəsi çərçivəsində yaşıllaşdırma işlərinin satın alınması

**İştirak haqqı - 50 manat**

**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı : "AZƏR TÜRK BANK" ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 03 sentyabr 2020-ci il saat 14:30-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 11 sentyabr 2020-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 sentyabr 2020-ci il saat 14:30-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti üçün əlavə tədris korpusunun tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınmasının təkliflər sorğusu üsulu ilə həyata keçirilməsini elan edir

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 27 avqust 2020-ci il saat 18:00-a kimi qəbul olunur. Təkliflər sorğusu zərflərinin açılışı 28 avqust 2020-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanında,Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

Əlaqələndirici şəxs: Sirac Əliyev, tel.: (012) 465-73-48 (daxili: 110).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən 30 noyabr 2019-cu il tarixdə Avadanlıqların satın alınması üzrə keçirilmiş elektron açıq tender proseduru Tender komissiyasının qərarına əsasən ləğv olunmuşdur.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə tezlik çeviricilərinin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilə və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).

Malgöndərənlər (podratçılar) müəyyən edilən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tender təklifini dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **09 sentyabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **17 sentyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsi ilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **18 sentyabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən 8 aprel 2020-ci il tarixdə Beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda, mükafatlandırma, eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan hədiyyələrin satın alınması üzrə keçirilmiş kotirovka sorğusu Tender komissiyasının qərarına əsasən ləğv olunmuşdur.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

## *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

4 aylıq
41,60 (qırx bir manat altmış qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası maşın, avadanlıq və ləvazimatların satın alınması üzrə büdcədənkənar vəsait hesabına keçiriləcək elektron tenderdə iştirak etmək üçün dəvət edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İŞTİRAK HAQQI: 450 (dörd yüz əlli) manat**
**TƏŞKİLAT: AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI**
**BANKIN ADI: KAPİTAL BANKIN GƏNCLİK FİLİALI**
**KOD: 200189**
**VÖEN: 9900003611**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: AIIBAZ2X**
**H/HESABI: AZ20AIIB38090019440138430118**
**VÖEN: 1500374911**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03.09.2020-ci il saat 11:00-a, tender təklifi və bank təminatını isə 11.09.2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14.09.2020-ci il saat 11:00-da açılacaqdır.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Gəmi qapılarına, ilyuminatorlara və anbar qapaqları üçün rezin kipləşdiricilərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 avqust 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi cari il ərzində beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda, mükafatlandırma, eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan əl işlərindən ibarət hədiyyələrin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla), digər zəruri sənədlər 18 avqust 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı, 86 ünvanında yerləşən ofisinə təqdim olunmalıdır (telefon: 012 525-50-26). Zərflər 18 avqust 2020-ci il saat 17:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları AZ1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

***Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Səbinə Fərman qızı Məmmədovanın adına verilmiş Bakı şəhəri, Yasamal rayonu, Ələsgər Ələkbərov küçəsi, məhəllə 510, ev 15a, mənzil 20 ünvanına dair MA № 0207946 seriyalı (reyestr nömrəsi: 011011000174-05101-093024, qeydiyyat nömrəsi: 1111040692) Çıxarış itdiyi üçün etibarsız sayılır.***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7268
Sifariş 1913
Qiyməti 40 qəpik